# “General Polad Həşimov - Vətənə sədaqət nümunəsi”

Qəbələ rayon Heydər Əliyev Mərkəzində Tovuz döyüşlərinin altıncı ildönümünə həsr olunmuş "General Polad Həşimov - Vətənə sədaqət nümunəsi" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Qəbələ rayon Heydər Əliyev Mərkəzinin direktor əvəzi Kəmalə Qasımova 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərinin dövlət sərhədlərimizin qorunmasındakı strateji rolundan bəhs etmiş, bu döyüşlərin tarixi Zəfərimizin mühüm təməl daşlarından biri olduğunu vurğulamışdır. Çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu strategiyasının ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq qazanılan qələbədən, işğal altında olan torpaqların azad edilməsindən danışmış, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə adını şanlı qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazan Azərbaycanın Milli Qəhrəmanı general mayor Polad Həşimovun daima xatirələrdə yaşayacağını qeyd etmişdir. Digər çıxış edənlər Milli Qəhrəmanın yüksək insani keyfiyyətləri, peşəkar komandirlik məharəti və əsgərləri ilə çiyin-çiyinə ön cəbhədə vuruşaraq göstərdiyi fədakarlığın gənc nəslə örnək olduğunu bildirmişdir. Tədbir çərçivəsində Tovuz döyüşlərinin gedişatını, general-mayor Polad Həşimovun şərəfli ömür və döyüş yolunu əks etdirən videoçarx nümayiş olunmuşdur. Şəhid general-mayorun xanımı Ofelya Salmanova qəhrəmanın keçdiyi şərəfli döyüş və ömür yolundan bəhs etmiş, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişdir.




*Tarixi yazıb tarixə qovuşan vətənpərvərlər*

# “Vətənpərvərlik epopeyası“ qələmin gücündə

Milli qan yaddaşımızda, milli məfkurəmizdə, ideologiyamızda əsas yer tutan şəhidlərin həyatını tarixə yazmaq, zamanın yaddaşına həkk etmək də böyük hünər tələb edir. Böyük hünərin iti qələmi, böyük ürəyin vətən məhəbbəti, vətən şəhidlərinə yenilməz ehtiram və qürur hissləri insanı daim ruhlandırır. Şəhidlərin həyat və döyüş yolunu tarixə yazmaq, bir sözlə, onlarla bağlı silinməz yaddaşımızı qorumaq, gücləndirmək hər bir vətəndaşın üzərində böyük məsuliyyət və mənəvi borcdur. Belə insanlar şəhid ömrünü vərəqə köçürdükcə, qalın-qalın kitablar ərsəyə gətirdikcə özləri də bilmədən tarixin bir hissəsinə, müəyyən bir anına çevrilirlər. Şəhid ömrü ilə bərabər şəhid kimi Azərbaycan tarixinin müqəddəs səhifələrinə qovuşurlar.

Qələminin qüdrəti ilə, dərin zəkası ilə, ən nəhayət, daim sonsuz vətən sevgisi və şəhidinə ehtiram hissi ilə yaşayan dəyərli vətənpərvər Bibixanım İsayeva kimi....

Bibixanım İsayeva jurnalist, yazıçı-publisist kimi dəyərli, güclü qələmi ilə hər bir mövzuya xüsusi rəng qatıb, haqq-ədalət, vətən sevgisi, ana-övlad məhəbbəti, qəhrəmanlıq mövzusunda oxucunu daim maraq və diqqətdə saxlayıb. Jurnalist peşəsinə yiyələnəndə özü də heç bilmirdi nə vaxtsa ürəyindən gələnləri sətirlərə tökəndə qələmi ağlayacaq, qəlbi sızlayacaq. O, bu peşəni seçəndə yaşadığımız çiçəkli, sakit dünyanı, doğma Azərbaycanın gözəlliklərini, şaqraq şəlalələrini, zümrüd meşələrini, bir-birindən gözəl qədim tarixi vətən torpaqlarını, bu torpaqlarda doğulan, əbədi məskən quran, təşəkkül tapan el oğullarının, sadə, xoşbəxt vətəndaşların həyat hekayələrini qələmi ilə yaşatmağı, yazdıqlarını qürurla tarixin bir mühüm anına çevirməyi arzu etmişdi.

Azərbaycanda baş verən bütün tarixi proseslər Bibixanım İsayevanın qələmində günbəgün xatırlandı, yazıldı və gələcəyimizə irs kimi bəxş olundu. Bu illər ərzində fikir, amal, arzu, niyyət hamısı bir oldu: Azərbaycana və Azərbaycan oğullarının həyat hekayələrinə həsr olunan jurnalist ömrü, vətən üçün çırpınan ürək, düşmənə sipər iti qələm. 1990-cı illərdən başlayaraq jurnalist, yazıçı-publisist kimi yaradıcılığında vətən, vətənpərvərlik, Azərbaycançılıq ideyaları əsas yer tutdu. Kitab, qəzet, jurnallarda Bibixanım qələmi Qarabağ müharibəsini əks etdirdi və illər ərzində qalaq-qalaq, kitablara sığmayacaq qədər “döyüş yolu”, ”mübarizə ruhu”, ”düşmənə sipər oğullar” mövzuları oxucuya təqdim olundu. Əlbəttə bu illər ərzində nə anaların yaraları qaysaq bağladı, nə də Bibixanım İsayevanın qələmi həzin, kədərli və kədərli olduğu qədər qürurverici xatirələrdən uzaqlaşdı. İllər ötdü, zaman irəlilədi. 2020-ci ilin sentyabr ayında Azərbaycan xalqı vahidliyini, yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. 30 illik çətin keçilən, ağır yol cəmi 44 gün ərzində qət edildi. Bütün bu tarixi hadisələr Bibixanım İsayevanın qələmində öz əksini tapdı. ”İnsanlığın zirvəsi”, ”Ağ rəngin sehri”, ”Qaya qartalı”, ”Vətənpərvərlik epopeyası” kimi dəyərli kitablarında İkinci Qarabağ müharibəsi şəhidləri, qaziləri, vətənə əsl oğul yetişdirən anaların həyat hekayələrini qələmində bir daha yaşatdı.

”Vətənpərvərlik epopeyası” kitabını vərəqlədikcə “Şəhidlər ölmür” ifadəsinin aliliyini bir daha anlayırsan. Anlayırsan ki, onlar qısa ömür yaşasa da, mənalı, xalqın yaddaşında əbədi qalan qəhrəman ömrü yaşadı. Bu kitab vətəni canından çox sevən, azadlıq, haqq-ədalət fədailəri, müqəddəs torpağın qədrini bilən, Azərbaycan uğrunda şəhid olan hünərli vətən oğullarına ithaf olunub. Burada seçilmiş başlıqlar hər bir şəhidin həyat yolunu ifadə edir. Düşünürəm və xəyal edirəm ki, Bibixanım İsayeva bu kitabı ərsəyə gətirərkən, xatirələri dinləyərkən bütün analarla bərabər ağlayıb, onların uşaqlıq illərini, döyüş meydanındakı rəşadətli anlarını gözü qarşısında bir film kimi canlandırıb. Bütün bunlarla yanaşı şəhidlərin həyatının müxtəlif anlarında yaşanmış ən kiçik hadisələr, bu hadisələrin ömrünün son günləri ilə həmahəng olması, kiçik yaşlarından əməksevər olmaları, vətənə

**(Ardı 8-ci səhifədə).**

# Şəhərsalma və memarlıq sabaha zəngin irsdir

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır.



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq biruzə vermişdir.





Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən Müharibəsindəki zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir.

Azərbaycan zəngin tarixi və mədəni irsi ilə şəhərsalma və memarlıq sahəsində unikal tikililər ölkəsidir. Bu gün Azərbaycanın şəhərlərinə baxarkən keçmişlə gələcəyin bir nöqtədə qovuşduğunu görmək mümkündür.

Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin “Memarlıq və şəhərsalma ili” elan olunması ölkəmizi daha da canlandırdı. Nəinki Qarabağ bölgəsi, həmçinin, digər rayonlarımızda da quruculuq və abadlıq işləri görülür, yeni layihələrə imza atılır.

Bu rayonlardan biri də turizm bölgəsi kimi tanınan Qəbələ rayonudur. Qəbələ rayonunda son illərdə sosial-iqtisadi inkişafın təmin edilməsi, turizm potensialının artırılması və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə genişmiqyaslı quruculuq və abadlıq işləri həyata keçirilir.

Belə ki, Qəbələ şəhəri və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur, Qəbələ şəhərindəki park və xiyabanlar, istirahət guşələri və mərkəzi küçələr boyunca yaşıllaşdırma zolaqları salınır, müasir işıqlandırma sistemləri quraşdırılır. Rayonun kəndlərini mərkəzlə birləşdirən avtomobil yollarında, eləcə də, körpü və su keçidlərində cari və əsaslı bərpa işləri görülür.

Eyni zamanda rayonumuzda “Sərinləşdirici içkilər” istehsal edən və gələn ilin sonuna kimi tikintisinin başa çatması nəzərdə tutulan zavodun tikintisinə Avropa və Gürcüstan Respublikasının investisiyası qoyulub. Hazırda tikintidə 500-dən artıq işçi çalışır. Zavod istehsal gücünə düşdükdən sonra burada 300 nəfər daimi işlə təmin olunacaq.

Tikintisi bu ilin sonunda başa çatacaq daha bir tikili isə otel tipli istirahət mərkəzi olan “Grand city” otelidir. Bu otel 3 ha ərazini əhatə edir. Burada Spa və digər sağlamlıq mərkəzləri inşa edilir. 4 ha ərazini əhatə edən “Aqua park”da isə tamamlanma işləri aparılır.

Tikintisi başa çatmış və bu yaxınlarda istifadəyə veriləcəyi gözlənilən 10 saylı Vergilər İdarəsidə rayonumuzun yeni tikililər sırasına daxildir.

Qəbələdə aparılan quruculuq işlərinin əsasını əhalinin yaşam standartlarının yüksəldilməsi və rahatlığının təmin olunması təşkil edir. Rayonumuzda həyata keçirilən quruculuq və abadlıq işləri yalnız vizual dəyişikliklərlə məhdudlaşmır; bu layihələr yeni iş yerlərinin açılmasına, iqtisadi canlanmaya və sakinlərin rifahının yüksəlməsinə birbaşa xidmət edir. Bu gün Qəbələ, öz tarixi köklərinə sadiq qalaraq müasir gələcəyə inamla addımlayan nümunəvi bir regiondur.

Ümumiyyətlə, 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi keçmişimizə olan dərin ehtiramın və gələcəyə doğru atılan cürətli addımların bariz təzahürüdür. Bu il çərçivəsində reallaşdırılan layihələr, elmi tədqiqatlar və beynəlxalq tədbirlər Azərbaycanın şəhərsalma xəritəsini daha da zənginləşdirəcək, gələcək nəsillərə daha yaxşı yaşanılan, estetik və modern məkanlar irs qoyacaqdır.

**İlahə EYVAZLI,**
**“Qəbələ səsi”.**